Tarixi cinayətə hüquqi-siyasi qiymət

Prezident Heydər Əliyev 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalayıb

Azərbaycan xalqı XX əsrin əvvəllərindən başlayaraq, insanlıq tarixinin ən böyük bəlalarından biri olan qaçqınlıq həyatı ilə üz-üzə qalmışdır. İndiki Ermənistan ərazisində vaxtilə 100 minlərlə soydaşımızın yaşamasına baxmayaraq, hazırda bu ölkədə bir nəfərdə olsun azərbaycanlı yaşamır. Bu səbəbdən də Ermənistan dünyada mövcud olan monoetnik dövlətlərdən biridir. Qərbi Azərbaycan adlandırdığımız indiki Ermənistan ərazisindən tarixin müxtəlif dövrlərində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə azərbaycanlıların etnik təmizləməyə məruz qalması daha dəhşətli xarakter almışdır. Belə ki, bu illər ərzində yüz minlərlə həmvətənimiz göz açdıqları ata-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bazi vaxtlarda ermənipərəst mövqeyi ilə Sovet hakimiyyəti də Ermənistanda demoqrafik dəyişikliyin baş verməsində xüsusi rol oynamışdır.

44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurdan didərgin düşmüş məcburi köçkünlərin öz tarixi torpaqlarına qayıdışı bu məsələni yenidən aktuallaşdırdı. Prezident İlham Əliyevin 2022-ci ilin dekabrında Qərbi Azərbaycan İcmasında bir qrup ziyalı ilə görüşündə səsləndirdiyi bəyanat Qərbi azərbaycanlıların diqqətdən kənarda qalmadığını göstərdi. Dövlət başçısının göstərişilə hazırlanan "Qayıdış Konsepsiyası" Qərbi azərbaycanlılar üçün ümid çırağı oldu. Amma nəzərə almalıyıq ki, bütün bu ideyaların müəllifi ümummilli lider Heydər Əliyevdir. Ulu öndərin ölkəyə rəhbərlik etdiyi illərdə bu məsələni hər zaman dilə gətirməsi və bu mövzu haqqında qərarlar verməsi indiki çağırışların əsas bazasını təşkil edir.

Prezident Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından olduqca önəmlidir. Fərmanda qeyd olunur ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indiki Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə ermənı şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, odövrkü Azərbaycan rəhbərliyinin xalqın taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin həyata keçirilməsində az rol oynamamışdır. Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Xalqımızın kimliyini dərk etməsi, öz tarixi və mənəvi köklərini tanıması, baxımından, bu Fərman mühüm əhəmiyyət daşıyır. Bu tarixi sənəd əsrlər boyu xalqımıza qarşı həyata keçirilmiş ayrı-seçkilik siyasətini üzə çıxararaq, onu təşkil edənləri ilk dəfə olaraq dövlət səviyyəsində ifşa etmiş və adları tarixə həkk edilmişdir. Bu, həm milli yaddaşın güclənməsi, həm də xalqımızın haqlı mövqeyinin dünyaya çatdırılması baxımından böyük bir addımdır.

Azərbaycan tarixində dərin iz buraxan 1948-1953-cü illər deportasiyası xalqımızın tarixi yaddaşında ağrılı bir dövr kimi əks olunub. Azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi barədə SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli Qərarı İosif Stalinin tərəfindən qəbul edilmişdi. Stalinin imzası ilə təsdiqlənən bu qərar nəticəsində, Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlının 1948-1950-ci illərdə Azərbaycan SSR-in Kür-Araz ovalığına məcburi köçürülüb. Məcburi köçürülməyə səbəb kimi xarici ölkələrdə yaşayan ermənilərin "tarixi vətənlərinə" qayıtmaq istəyi göstərilsə də, əsl həqiqət azərbaycanlıların torpaqlarından qovularaq həmin ərazilərə gətirilən ermənilərin məskunlaşması idi. Köçürülməsi nəzərdə tutulan azərbaycanlıların sayı 100 minə çatmadığından 1950-ci il sentyabrın 6-da SSRİ Nazirlər Soveti "1951-1955-ci illərdə Azərbaycan SSR-in Kür-Araz ovalığının kolxozlarına köçürülmə haqqında" yeni qərar qəbul etdi. "Ümumilikdə, 100 min soydaşımızın köçürülməsi nəzərdə tutulsa da, 150 min azərbaycanlı bu deportasiyanın qurbanı oldu. Deportasiyanın ardından erməni millətçiləri yeni bir mərhələyə - mənəvi işğal kampaniyasına başladılar. Öz havadarlarının dəstəyi ilə başladılan bu kampaniya çərçivəsində qədim Azərbaycan kəndlərinin tarixi adları dəyişdirildi. Min illərin tarixini, mədəniyyətini əks etdirən toponimlər sistemli şəkildə silinərək, onların yerinə qondarma erməni adları yazıldı. Toponimika tarixində misli görünməmiş bu vandalizm aktı Azərbaycanın mədəni irsinə qarşı açıq-aşkar bir barbar hücum idi. 1953-cü ildə İosif Stalinin ölümü deportasiya prosesinin sürətini nisbətən yavaşıtsa da, bu zorakılıq dalğası Azərbaycan xalqının yaddaşında silinməz izlər buraxdı. Bu hadisələr bizə bir daha göstərdi ki, milli irsimizi qorumaq, tariximizi dünyaya çatdırmaq və haqq səsimizi ucaltmaq hər birimizin mənəvi borcudur. Bu borc keçmişin acılarına baxmayaraq, gələcəyə daha güclü addımlamaq üçün bir çağırışdır.

Musa BAĞIRLI,
"Respublika".